# MƏNBƏŞÜNASLIQ

**Tərtib edən: professor Oqtay Cəlilbəyli**

**Müqəddimə**

Mənbəşünaslıq ədəbiyyatşünaslığa daxil olan elm sahələrindən biridir. Bu fənn ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi ilə bağlı mənbələri, onların əldə edilməsi, təsnif edilib sistem halına salınması və onlardan istifadə yollarını öyrənir. Mənbəşünaslıq ədəbiyyatın digər sahələri ilə bağlıdır, xüsusi ilə ədəbiyyat tarixi və mətnşünaslıq kimi elm sahələri üçün böyük əhəmiyyətə malikdir.

Yapon ədəbi mətnlərinin düzgün seçilməsi, çapa hazırlanması olduqca problematik xarakter daşıyıb mənbələrə ehtiyatla yanaşma, onlardan düzgün istifadə tələb edir. Eləcə də yapon ədəbiyyatşünaslığı ilə bağlı bir çox problemlərin həlli ancaq mənbələrin düzgün araşdırılması ilə mümkündür.

Hər bir ədəbiyyatda olduğu kimi yapon ədəbiyyatında da əsas mənbə olaraq ədəbi mətn nümunələri başa düşülür. Tarixi V əsrə gedib çıxan yapon ədəbiyyatının ilk nümunələri VIII əsrdən yazıya alınması faktının özü bu elm sahəsinin nə qədər vacib olduğunu, həqiqi mətnlərin intihaldan fərqləndirilməsinin zəruriliyinə dəlalət edir.

Yapon ədəbiyyatı ilə bağlı mənbələr ayrı-ayrı yazıçıların gündəlikləri, müxtəlif müəlliflərin poetik irsini özündə cəmləşdirən məcmuə, özündə həm şair və ediblərin həyat və yaradıcılığı haqqında məlumatları, həm də söz sənəti ilə əlaqədar bəzi nəzəri məsələləri cəmləşdirən və "ədəbi" adlanan antologiyaları, ayrı-ayrı nikkilərə yazılmış şərhləri, eləcə də ədəbiyyatla bağlı bir çox faydalı məlumatları hifz edən tarix, coğrafiya, etnoqrafiyaya dair ensklopedik əsərləri əhatə edir. Orta əsr alimlərinin bu və ya digər müəllifə münasibətdə subyektivliyə meylliliyi, kitabların oxunaqlı olması üçün bəzən həqiqətdə baş verməyən miflərin gündəliklərə daxil edilməsi yapon ədəbiyyatı ilə bağlı mənbələrin diqqətlə araşdırılmasını tələb edir.

"Mənbəşünaslıq" fənninin tədrisində məqsəd magistrantları məhz bu problemlərlə tanış etmək, onlarda mənbələrlə işləmək bacarığı yaratmaq və təhsil alanlara müəyyən nəzəri biliklər verməkdir. Fənn aşağıdakı mövzuları əhatə edir:

**Birinci mövzu**: Mənbəşünaslığın predmeti və vəzifələri nələrdir. Niyə görə mənbəşünaslıq xüsusi elm sayılır. Onun digər tarixi elmlərdən fərqi nədir. Nəzəri mənbəşünaslığın vəzifələrinə nələr daxildir.

**İkinci mövzü**: Tarixi tədqiqatın metodları. Tarixi mənbənin təsnifatı əsasında olan amillərin müqayisəsi, onların üstünlüyünün və çatışmazlığının əsaslandırılması.

**Üçüncü mövzü**: Osmanlı yazı mənbələri. Suryani mənbələr. Türkdilli mənbələr.

**Dördüncü mövzu**: Tətbiqi mənbəşünaslığın mərhələləri. Tarixin qalıqları və tarixi ənənələr. Tarixi mənbələrin hansı növləri mövcuddur. İqtisadi-coğrafi təsvirlər.

**Beşinci mövzu**: XVII-XIX əsr Qafqaz mənbələri. Farsdilli mənbələr. Orta əsr ərəbdilli mənbələr. Alban mənbələri.

**Altıncı mövzu**: Mənbənin texniki təhlili. Kargüzarlıq sənədləri. Qanunvericilik sənədləri. Akt. Statistik sənədlər. Dövrü mətbuat.

**Yeddinci mövzu:** Etnoqrafiq mənbələr. Linqvistik mənbələr. Mənbəşünaslıq-ümumhumanitar fənlərin sintezidir.

**Səkkizinci mövzü**: Tarixi mənbə nədir. Mənbələrin daxili tənqidi. Tarixi tədqiqatlarda riyazi metodlar. Tarixi mənbənin əsas təsnifatlarını göstərin.

**Doqquzuncu mövzü:** Yunan-Roma tarixi mənbələri. Folklor mənbələr. Mənbəşünaslığın evristik funksiyasının mahiyyəti.

**Onuncu mövzu**: Mənbəşünaslıq elminin analtik-metodoloji funksiyasının mahiyyəti. Gürcü mənbələri. Tarixin metodologiyası. Köməkçi tarix fənləri.

| N | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Müh. | Məş. |
| 1. | Mənbəşünaslığın predmeti və vəzifələri nələrdir. Niyə görə mənbəşünaslıq xüsusi elm sayılır. | 2 | 2 | |
| 2. | Tarixi mənbənin təsnifatı əsasında olan amillərin müqayisəsi, onların üstünlüyünün və çatışmazlığının əsaslandırılması. | 4 | 2 | 2 |
| 3. | Osmanlı yazı mənbələri. Suryani mənbələr. | 2 | 2 | |
| 4. | Tətbiqi mənbəşünaslığın mərhələləri. Tarixin qalıqları və tarixi ənənələr. | 4 | 2 | 2 |
| 5. | XVII-XIX əsr Qafqaz mənbələri. Farsdilli mənbələr. | 2 | 2 | |
| 6. | Mənbənin texniki təhlili. Kargüzarlıq sənədləri | 4 | 2 | 2 |
| 7. | Tarixi tədqiqatlarda riyazi metodlar. Tarixi mənbənin əsas təsnifatlarını göstərin. | 2 | 2 | |
| 8. | Mənbəşünaslıq-ümumhumanitar fənlərin sintezidir. | 4 | 2 | 2 |
| 9. | Mənbəşünaslığın evristik funksiyasının mahiyyəti. | 2 | 2 | |
| 10. | Mənbəşünaslıq elminin analtik-metodoloji funksiyasının mahiyyəti | 4 | 2 | 2 |
| CƏMİ: | | 30 | 20 | 10 |